Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**



**Nəriman Əbdülrəhmanlı**

(əvvəli ötən sayımızda)

# Xan qızının nəvəsi, Cümhuriyyət məmurunun oğlu

## *Bir soyadın arxasındakı həqiqət*

## Aydın Ağdaşlu - 85



***1977-ci ildə Rza Abbasi Muzeyinin direktoru təyin edilən Aydın Ağdaşlu bu dövrdə ictimai karyerası ilə tandemdə həm də ən məhsuldar yaradıcılıq dövrünü yaşayırdı. Rəssamın məşhur 'Süqut xatirələri" seriyası da tamaşaçılara həmin illərdə təqdim edildi. O, qədim İran, həmçinin, XV-XVI əsrlər Qərb rəssamları və sənətkarlarının əsərlərini diqqətlə öyrəndi, ən yaxşı cəhətləri mənimsəyib orijinal və təkrarsız əsərlərini yaratdı. Rəssam ağlasığmaz səhlənkarlıq, mədəni və siyasi təlatümlər nəticəsində məhv edilmiş nadir, bənzərsiz sənət əsərlərinin məruz qaldıqları təsirləri öz reproduksiyalarında yaşadırdı: müəyyən formada zədələnmiş sənət əsərini çəkər, ya da son dərəcə diqqətli və təfərrüatlara böyük diqqət yetirə-yetirə yeni sənət əsəri yaradır, yaxud onu sonradan fiziki cəhətdən eybəcərləşdirirdi. Bu təcrübə də getdikcə onun bədii üslubuna, təkcə sənətinin deyil, həyat fəlsəfəsinin də müəyyənləşməsinə gətirib çıxardı.***

Bütün kənar təsirləri maarifçiliyə, incəsənətə və mədəniyyətə təcavüz sayan Ağdaşlu yaradıcılıq axtarışlarını davam etdirir, üslubu daha zərif, daha yetkin olurdu. O, İntibah dövrünün rəsm əsərlərində, 800 illik qırıq-qırıq İran saxsı qablarında, Qacarlar sülaləsi daş-qaşlı padşahlarının və zadəganlarının möhtəşəm portretlərində və antik illüstrasiyalı kitablarda sonsuz gözəlliyi görür, tamaşaçılara isə zamanın o gözəlliyə dağıdıcı təsirini ustalıqla çatdırırdı.

Bu illərdə Aydın Ağdaşlu artıq beynəlxalq aləmdə də tanınmağa başlamışdı...

### 6. Sıxıntılı on il

1979-cu il Aydın Ağdaşlunun şəxsi həyatında da, yaradıcılığında da daha bir, bu dəfə nəhs dönüş ili oldu...

Həmin ilin fevralında İslamçılar Fransanın dəstəyi və Ayətullah Xomeyninin başçılığı altında şah rejimini devirdilər, Rza Pəhləvi də, Şahbanu da ölkədən getmək məcburiyyətində qaldılar. Aydın Ağdaşlu isə keçmiş hakimiyyətin məmuru kimi bütün vəzifələrindən azad edildi, ölkədən çıxışına qadağa qoyuldu, hər an həbs olunmaq təhlükəsi altında yaşamağa başladı.

Üstəlik, yeddiillik birgə həyatlarında övlad sahibi ola bilmədiklərinə, həm də aralarındakı ölkədə qalıb-qalmamaqla bağlı fikir ayrılığı yarandığına görə Şöhrəylə boşanmaq qərarına gəldilər. Şöhrə elə həmin il çıxıb ABŞ-a getsə də artıq tanındığı "Ağdaşlu" soyadından imtina eləmədi, ifaşlıq karyerasını orda bu soyadla davam etdirdi.

O ilin payızında Aydın Ağdaşlu Tehrandakı Əl-Zəhra Universitetində incəsənət fənni üzrə pedaqoji fəaliyyətə başladı, lakin bu fəaliyyətinin ömrü o qədər də uzun olmadı: yeni hakimiyyət islamlaşma siyasətini həyata keçirmək üçün qəbul elədiyi Mədəni İnqilab proqramına əsasən, bütün universitetləri üç il müddətinə bağladı, az sonra da İran-İraq müharibəsi başladı, vəziyyət daha da qeyri-müəyyən şəkil aldı. Üstəlik, yeni siyasi rejimin mədəni dəyərlərə fərqli münasibəti üzündən əsərlərini sərgiləyə bilməyən rəssam özüifadə vasitəsi kimi illüstrasiyaya müraciət eləmək məcburiyyətində qaldı, sifariş əsasında kitablara üz qabığı və filmlərə afişa hazırlamağa, hər birinə də sənət əsəri kimi yanaşmağa başladı, 1981-ci ildə isə özəl İncəsənət Akademiyasını aça bildi.

Elə həmin il də o, yenidən ailə qurmağı qət elədi, həyatını memar Firuzə Əthəriylə birləşdirdi, sonrakı il ilk övladları Təkin, 1988-ci ildəsə qızları Tara dünyaya gəldi.



***Əlbəttə ki, ilk övladının doğuluşundan az sonra anası Nahidə xanımın Haqqa qovuşması onun həyatında ən böyük sarsıntılardan biriydi. O, mənəvi müvazinətini yalnız yaradıcılıqla saxlaya bilərdi, "Malek bağı haqqında qeydlər", "Avtoportretlər", "Əhəmiyyətsiz mənzərələr", 1990-cı illərdə isə "Enən mələklər" və "Müəmma" seriyasından yaratdığı tablolar məhz sənətçinin belə bir ruh halını əks etdirirdi...***

Ölkədən çıxışına qadağa qoyulmuş sənətçinin adı "qara siyahı"dan yalnız İran İslam İnqilabının 10 illik yubileyindən sonra çıxarıldı...

### 7. Tehranla Toronto arasında

***İslam inqilabı və səkkiz illik müharibə Aydın Ağdaşlunun yaradıcılığında dərin iz buraxdı...***

***Rəssam əsərlərinin əksəriyyətində zamanın və dağıdıcı hadisələrin məhvə məruz qoyduğu məkanları, qədim tarixi abidələri təsvir eləyirdi. Həm də İran miniatür sənətindən faydalanır, müasir dünyayla bağlı subyektiv anlayışlarını təsvirə gətirmək üçün klassik üslub və məkankara üz tuturdu.***

1992-ci ildə isə o, "Sevinclər və həsrətlər" adlı ilk esse və müsahibələr toplusunu nəşr etdirdi. Sonralar böyük oxucu marağı onu, əsasən, müasir mədəniyyət və İran incəsənəti tarixinə dair kitablar (üç məqalələr kitabı, iki rəsm kolleksiyası kitabı və İran incəsənət tarixinə dair iki monoqrafiya) nəşr etdirməyə, İranda da, xarici ölkələrdə də mühazirələr oxumağa vadar elədi. Sənətçi eyni zamanda bir neçə sərginin təşkilatçısı və koordinatoru oldu, müasir İran incəsənətini ölkədə və xaricdə (Çin, Yaponiya və İtaliyada)tanıtmaq üçün əlindən gələni əsirgəmədi.

2001-ci ildə İrandakı ictimai-siyasi qeyri-sabitlik üzündən həyat yoldaşı Firuzə övladlarıyla birgə Kanadanın Toronto şəhərinə köçdü, orada Art Qalereya açdı, hətta 2006-cı ildə Aydının ikinci fərdi sərgisini açdı. Həyatını tənha davam etdirən, övladları üçün çox darıxan Aydın Ağdaşlu isə o vaxtdan Tehran-Toronto aviaxəttinin daimi sərnişininə çevrildi, qalan vaxtını isə tələbələrinə və yaradıcılığa sərf elədi.

Məhsuldar yaradıcılığına və populyarlığına baxmayaraq Aydın Ağdaşlu daim fərdi sərgilərdən imtina eləyib, yalnız karyerası ərzində cəmi dörd sərgiyə razılaşıb. Rəssamın öz ölkəsində ikinci fərdi sərgisi isə 2014-cü ildə Assar İncəsənət Qalereyasında baş tutub. Övladlarına həsr olunmuş o sərgi İranda bütün zamanların ən məşhur özəl təsviri incəsənət tədbirlərindən birinə çevrilib. 2021-ci ildəsə onun rəsmləri erkən Hollandiya rəssamı Hans Memlinqin şedevrləriylə yanaşı Belçikanın Bruges şəhərində, 2022-ci ildə Tehrandakı Homa İncəsənət Qalereyasında "İranın son dövr incəsənətinə nostalji baxış" sərgisində nümayiş etdirilib.

2016-cı ildə yaradıcılıq uğurlarına görə Fransanın Fəxri Legion ordeninə layiq görülən şöhrətli sənətçi insan haqları sahəsində də öz mövqeyini bildirməkdən çəkinməyib. O, 2022-ci ildə Əxlaq Polisi tərəfindən Məhsa Əmininin ölümü ilə başlayan etirazlara dəstək verən, tələbə etirazlarını dəstəkləyən İran ziyalılarının kollektiv bəyanatını imzalayanlardan biriydi...

***

***Şöhrətli sənətçi Aydın Ağdaşlı ata-babasının yurduna ilk dəfə Güneylə Quzey arasındakı "dəmir pərdə" qalxandan sonra - 1992-ci ildə gəlib, əcdadlarının ruhu yaşayan yerləri göz yaşları içində gəzib...***

***2017-ci ildəsə daim yaddaşında yaşayan ocağı qızı Tara ilə birgə ziyarət eləyib..***

***Övladlarına yurd sevgisi aşılaya bildiyindəndi ki, Təkin və Tara babalarının ocağını unutmurlar...***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunur*